**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA və ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEVİNC AKİF QIZI NƏSİROVA**

# TOXUCULUQ SƏNƏTİ NÜMUNƏLƏRİ ÜZƏRİNDƏKİ NAXIŞLAR ETNOQRAFİK MƏNBƏ KİMİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASI ƏSASINDA)

**5102.01- Etnoqrafiya və etnologiya**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı- 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Gülzadə Sərxan qızı Abdulova**
*tarix üzrə fəlsəfə doktoru*

**Rəsmi opponentlər:** **Solmaz Səttar qızı Məhərrəmova**
*tarix üzrə elmlər doktoru*

**Sevdagül Fazil qızı Əliyeva**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Ümumi tarix» kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5102.01- Etnoqrafiya və etnologiya ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının "___" ________ 2018-ci il tarixli iclasında saat "___" keçiriləcəkdir.

**Ünvan:** AZ1073, Bakı ş., H.Cavid pr. 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" _______ 2018-ci ildə göndərilmişdir.

F/D. 01.171
Dissertasiya Şurasının Elmi katibi,
tarix üzrə fəlsəfə doktoru **Səfər Hüseyn oğlu Aşurov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın strateji-coğrafi mövqeyi, zəngin xammal bazası, əhalinin empirik bilik və bacarığı burada dekorativ-tətbiqi sənətlərin bütün sahələri ilə məşğul olmağa əlverişli zəmin yaratmışdır. Xalqımızın dərin köklərlə bağlı olduğu toxuculuq sənəti bu sənət sahələrindən biri olmuşdur. Azərbaycan ərazisində əhali hələ Neolit dövründən toxuculuqla (hörmə toxuculuğu) məşğul olmağa başlamışdır. Bu toxuculuq məmulatları ənənəvi sənət-peşə vərdişlərinə sahiblik edən sənətkarlar tərəfindən rəngarəng boyalarla bəzədilmişdir. Hər iki yun toxuculuğu istiqamətinin - istər parça məmulatları, istərsə də xalça-palaz məmulatı nümunələrinin tədqiqata cəlb olunması ilə aparılan araşdırmalar xalqımızın bu sahələrdə yaratdığı milli-mənəvi və maddi dəyərlərin zənginliyini əyani şəkildə təsdiqləyir. Bu məmulatların hər biri üzərində toxunan naxışlar isə xalqımızın etnogenezini, dini inanclarını, təsərrüfat və ailə məişətini, adət-ənənələrini, başqa türkdilli xalqlarla etnik-mədəni, iqtisadi əlaqələrini öyrənmək baxımından olduqca mühüm tarixi-etnoqrafik mənbə hesab olunur. Məmulat üzərində əks etdirilən hər bir naxış bir əfsanənin, bir ənənənin, bir tarixi hadisənin, bir inancın izi olaraq bizlərə gəlib çatmışdır. Bu naxışların tarixi-etnoqrafik baxımdan öyrənilməsi, onların mahiyyətinin, etnoqrafik duyum-yozum kontekstində sirrlərinin açılması, məna tutumunun dərk edilməsi, tarixi köklərimizin bağlandığı türk etnik-mədəni mühitində xalqımızın sənət nailiyyətlərinin araşdırılması üçün olduqca dəyərli etnoqrafik materiallar verir. Bəzən sadəcə estetik gözəllik kimi yozulan, artıq müasir zəmanəmizdə öz keçmiş mənasını itirmiş naxışların simvolik mənasını tapmaq çox çətin olur. Yaşlı toxucular dünyasını dəyişdikdən sonra bu naxışların ifadə etdiyi ilkin mənalar unudularaq tarixə qarışır. Tədqiqatın aktuallığını şərtləndirən əsas amillərdən biri məhz bu naxışların ilkin mənasını özünə qaytarmaq, onların ifadə etdiyi dünyagörüşü, xalq təxəyyülünün inikası olan təsvirlərin mənzərəsində gizlənən sirrləri açmaq, gələcək nəsillərə onların gerçək məzmununu çatdırmaqdır.

Hazırda Azərbaycan xalçaçılıq sənətinin yaşadılmasında və təbliğində dövlətimizin böyük qayğısı aydın görünür. Ənənəvi sənət irsimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün Respublika rəhbərliyi təqdirəlayiq işlər görmüş və görməkdədir. Respublikamızın Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva son illər Azərbaycan xalçaçılıq sənətinin yaşadılması üçün bir çox tədbirlər

həyata keçirmişlər. Məhz Mehriban Əliyevanın Azərbaycan xalçaçılığına olan qayğısı sayəsində 2010-cu ildə Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri Maddi Mədəni İrsin Qorunması Hökümətlərarası Komitəsinin V sessiyasında Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun "Bəşəriyyətin Qeyri Maddi Mədəni İrsin Reprezentativ siyahısı"na daxil edilmişdir.

Ermənilər tərəfindən hər fürsətdə mənimsənilən xalça sənətimizin dünyaya düzgün tanıdılmasında naxışların öyrənilməsi, onların türk etnik-mədəni mühitində yaranaraq biçimlənməsinin sübut edilməsi də vacib məsələlərdən biridir. Xalçalarımızın bəzilərinin İran, Qafqaz istehsalı kimi təqdim olunması mövzunun aktuallığını daha da artırır. Xalçalar üzərindəki naxışların açılması saxtakarlıqların qarşısına sədd çəkmək imkanı yaradır.

Nəhayət, dissertasiya mövzusunu aktual edən amillərdən biri də illərlə tədqiqatdan kənar qalmış qələmkar və başqa mühüm toxuculuq məmulatları üzərindəki naxışların da ilk dəfə olaraq etnoqrafik mənasının üzə çıxarılmasıdır. Ümumiyyətlə isə, AMEA- nın Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunun zəngin toxuculuq kolleksiyasının naxışlarının ilk dəfə kompleks şəkildə araşdırılaraq bu dissertasiya işi vasitəsilə elmi ictimaiyyətin diqqətinə çatdırılmasına cəhd edilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi**. Dissertasiya işi əsasən, XVIII-XX əsrlərə aid olan toxuculuq məmulatlarını əhatə edir. Lakin Muzeydə arxeoloji parçalar mühafizə olunur ki, bunlar e.ə V- e. V əsrlərinə aiddir. Qələmkarlar bir çoxunun XVIII-XX əsrin əvvəllərinə aid olduğunu müşahidə edirik. Fonddakı süjetli qələmkarların əksəriyyəti üzərində isə Səfəvi xanədanı və süjetli xalçaların bəziləri üzərində isə Cənubi Azərbaycanda azadlıq hərəkatı (1905-1911-ci illər) təsvir olunmuşdur. Fondda mühafizə olunan ən qədim xalça XVIII əsrə aiddir. Toxuculuq nümunələri üzərindəki naxışları petroqliflər üzərində və arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif saxsı qabların, kəmərlərin və başqa maddi-mədəniyyət nümunələrinin üzərində də izləmək mümkündür. Hələ eramızdan əvvəlki dövrə aid olan Pazırıq kurqanından əldə edilmiş xalça və keçələr üzərində olan naxış və təsvirlər qədim naxışların tarixini eramızdan əvvəlki dövrlərə aparıb çıxarır. Bir çox naxış Qobustan, Gəmiqaya və türk xalqlarının yayılma arealına daxil olan ərazilərin (Qazaxıstan, Cənub-Şərqi Sibir və s. ) qayaüstü rəsmlərində, Tunc dövrünə aid məmulatlar üzərində qarşımıza çıxır. Buna misal olaraq Qırğızıstanda Saymalı Taş, Çizgili Taş,

Qazaxıstanda Tamgalı və başqa qayaüstü təsvirlərin adını çəkə bilərik. Bu səbəbdən də tədqiqatın xronoloji çərçivəsi müəyyənləşdirdiyimiz zaman hüdudlarından kənara çıxır ki, bu da toxuculuq məmulatları üzərindəki naxış və təsvirlərin elmi-etnoqrafik təhlil və şərhini tarixilik baxımından aparmağa imkan verir.

**Mövzunun araşdırılma vəziyyəti və mənbəşünaslıq bazası**. Mövzu ilə bağlı sənətşünaslıq və arxeoloji baxımdan müxtəlif elmi əsərlər yazılmışdır. Xalçaçı-alim L.Kərimov naxışların tədqiqində bir sıra mühüm işlər görmüşdür. Alim əsərlərində xalça məktəbləri, xalçalar üzərindəki naxışların el adları və mənaları haqqında məlumat vermişdir. Lakin alim naxışların bir çoxunun semantikasını xalq etimologiyası əsasında vermişdir. Bəzi hallarda xalçalara adlar oxşatma vasitəsilə verilmişdir. Misal olaraq, Qubanın məşhur "Qollu Çiçi" xalçası üzərində olan "iç" naxışı L.Kərimov tərəfindən bəzən şamdan adlandırılmış, bəzən isə qeyri-müəyyən olduğu üçün sual işarəsi ilə şərtləndirilmişdir. Xalqımızın naxış yaddaşı N.Rzayev tərəfindən də tədqiq olunmuşdur. Dissertasiya işinin "Təsərrüfat həyatı ilə əlaqədar naxışlar" fəslində N.Rzayevin buynuz naxışı ilə əlaqədar verdiyi məlumatlardan istifadə olunmuşdur. İ.Avşarova isə Xocalı-Gədəbəy ərazisində tapılmış Tunc dövrünə aid məmulatlar üzərində olan naxışlar haqqında məlumat vermişdir. "Dini inanclarla bağlı naxışlar" fəslində İ.Avşarovanın bu elmi əsərindən faydalanmışıq. Xüsusilə onun bu elmi əsərindən əldə etdiyimiz günəş naxışının Tunc dövründə geniş istifadə olunması haqqında fikirlər tədqiqatımız üçün çox əhəmiyyətli olmuşdur. Sənətşünas R.Əfəndi müxtəlif dövrlərdə dünya muzeyləri və şəxsi kolleksiyalarda toplanmış məmulatlar üzərindəki naxış və təsvirlər haqqında tədqiqat işləri aparmışdır. Lakin müəllif problemə sənətşünaslıq baxımından yanaşmışdır. Son dövrlər nəşr edilmiş elmi ədəbiyyatlar sırasında A.Qurbanovun "Damğalar, rəmzlər, mənimsəmələr" əsərində bir çox naxışın məğzi açılmışdır. Məhz bu kitab tədqiqatımızda bəzi naxışların sirrinin açılması üçün açar rolunu oynamışdır. Kitab bu dövrədək yazılmış naxışların Türk dünyası ilə ortaq araşdırılması zəminində olduqca dəyərli mənbələrdən biridir. V.Muradov Azərbaycan xalçaları və xalça məmulatlarının tədqiqinə dair "Azərbaycan xalçaları" jurnalında, "Naxçıvanskiye kovratkaçi", "Azərbaycan xalçaları-İrəvan qrupu" və digər əsərlərində naxışların semiotikası haqqında araşdırmalar aparmaqdadır. Dissertasiya işində tədqiqatdan kənarda qalmış, ilkin mənası düzgün tədqiq edilməmiş

naxışların tədqiqinə, onların etnoqrafik cəhətlərinin araşdırılmasına cəhd edilərkən bu araşdırma əsərləri bizə zəngin materiallar vermişdir.

Tədqiqat obyekti və predmeti kimi müraciət etdiyimiz Milli Azərbaycan Tarixi Muzeyinin toxuculuq məmulatları üzərindəki naxışlar kompleks şəkildə tarixi-etnoqrafik tədqiqat obyekti olmamışdır. Lakin Muzeyin xalça məmulatları və xalçaları mövzusunda G.Abdulova tərəfindən araşdırma məqalələri yazılmış, akademik N.Vəlixanlının redaktəsi ilə "Qarabağ xalçaları" kataloqu hazırlanmışdır. Bu məqalə və kataloqlarda xalçaların rənglənməsi, tarixi barəsində mühüm məlumatlar olsa da, onların naxışları haqqında məlumatlara qismən rast gəlirik. Muzeyin ildə bir dəfə nəşr olunan toplusunda da tədqiqat işi üçün faydalı məqalələr dərc edilmişdir.

Dissertasiyanın tədqiqat mənbəyi müxtəlif toxuculuq məmulatları olduğu üçün onların üzərindəki naxışlar da müxtəlif mövzuları əhatə edir (təsərrüfat həyatı ilə bağlı, mifoloji dünya görüşü ilə bağlı və s.). Bu səbəbdən xalqımızın təsərrüfat məşğuliyyətini, qayaüstü rəsmlərini, toxuculuq nümunələrini, dini inanclarını, rəvayət, əfsanə və nağıllarını əhatə edən bir çox elmi ədəbiyyatdan istifadə olunmuşdur. Belə ki, maldarlıqla bağlı naxışlardan bəhs olunarkən T.Bünyadovun, G.Abdulovanın, H.Həvilovun, X.Xəlilovun tədqiqatlarına və "Azərbaycan etnoqrafiyası" çoxcildliyinə müraciət olunmuşdur. Dini inanclar və mifoloji dünyagörüşü ilə bağlı yerli və xarici ədəbiyyatdan xeyli material əldə edilmişdir. M.Seyidov, C.B.Məmmədov, A.İnan, B.Ögəl, Y.Kalafat kimi alimlərin əsərləri bu baxımdan daha yüksək qiymətləndirilmişdir. Naxışların bir çoxu islamaqədərki dini inanclarla bağlı olduğundan və birbaşa türk xalqlarının qədim dini olan Göy Tanrı və şamanist dünyagörüşünü əks etdirdiyindən, bu mövzuda olan tədqiqatlar mövzumuz üçün əsas götürülmüşdür. Y.Kalafat, M.Uraz, Y.Çoruhlu, Y.Devlet, G.Harvey, R.J.Walles və b. əsərləri faktik materiallar və elmi-analitik təhlillər baxımından xüsusilə seçilirlər. Naxışların tədqiqi ilə bağlı əsasən L.Kərimov, N.Rzayev, M.Erbek, T.Gülensoy, İ.Avşarova, V.Muradov, A.Qurbanov, A.Sürür, Y.Şerare, R.Əfəndiyev və başqalarının tədqiqatlarından da səmərəli şəkildə istifadə olunmuş, onlara elmi-tənqidi münasibət bildirilmişdir. Bununla yanaşı, mövzu ilə bağlı azərbaycan, rus, ingilis və türk dillərində lüğət və ensiklopediyalardan da müntəzəm istifadə olunmuşdur. Bu sıraya "Mifı narodov mira", "Türk mifoloji sözlüyü", "A dictionary of symbols" və s. daxildir. Dissertasiya işinin yazılmasında xalqımızın etnoqrafik bilgilərinin geniş yer aldığı "Kitabi Dədə Qorqud"

dastanından da mənbə kimi istifadə etmiş, müxtəlif elmi jurnalların - AMEA-nın "Xəbərlər" elmi jurnalı, "Azərbaycan xalçaları", "MATM məqalələr toplusu" və xarici ölkələrdə nəşr olunan nüfuzlu jurnalların məqalələrindən faydalanmışıq.

Mövzu tarixi-etnoqrafik tədqiqat səciyyəsi daşıdığına görə, çöl tədqiqatları və informatorlardan alınan məlumatlar da burada öz əksini tapmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Tədqiq edilən mövzunun dövlətimizin qayğısı sayəsində müasir cəmiyyətimizdə son dərəcə mühüm məsələlərdən birini təşkil etməsi onun sənətşünaslar, tarixçilər tərəfindən tədqiq edilməsinə istiqamət verir.

Xalçaçı-alim L.Kərimov naxışların tədqiqində bir sıra mühüm işlər görmüşdür. Alim əsərlərində xalça məktəbləri, xalçalar üzərindəki naxışların el adları və mənaları haqqında məlumat vermişdir. Bəzi hallarda xalçalara adlar oxşatma vasitəsilə verilmişdir. Misal olaraq, Qubanın məşhur "Qollu Çiçi" xalçası üzərində olan "iç" naxışı L.Kərimov tərəfindən bəzən şamdan adlandırılmış, bəzən isə qeyri-müəyyən olduğu üçün sual işarəsi ilə şərtləndirilmişdir. Xalqımızın naxış yaddaşı N.Rzayev tərəfindən də tədqiq olunmuşdur. Dissertasiya işinin "Təsərrüfat həyatı ilə əlaqədar naxışlar" adlı fəslində N.Rzayevin buynuz naxışı ilə əlaqədar verdiyi məlumatlardan istifadə olunmuşdur. İ.Avşarova isə Xocalı-Gədəbəy ərazisində tapılmış Tunc dövrünə aid məmulatlar üzərində olan naxışlar haqqında məlumat vermişdir. "Dini inanclarla bağlı naxışlar" fəslində İ.Avşarovanın bu elmi əsərindən faydalanmışıq. Xüsusilə onun kitabından əldə etdiyimiz günəş naxışının Tunc dövründə geniş istifadə olunması haqqında fikirlər tədqiqatımız üçün çox əhəmiyyətli olmuşdur.

Tədqiqat obyekti və predmeti kimi müraciət etdiyimiz Milli Azərbaycan Tarixi Muzeyinin toxuculuq məmulatları üzərindəki naxışlar indiyədək kompleks şəkildə tarixi-etnoqrafik tədqiqata cəlb edilməmişdir. Lakin Muzeyin xalça məmulatları və xalçaları mövzusunda G.Abdulova tərəfindən bir sıra elmi məqalələr yazılmış, akad. N.Vəlixanlının redaktorluğu və G.Abdulovanın müəllifliyi ilə "Qarabağ xalçaları", N.Vəlixanlının redaktorluğu, X.Əsədovanın müəllifliyi ilə "Quba, Şirvan, Bakı xalçaları" adlı kataloqlar nəşr edilmişdir. Kataloqlarda xalçaların boyanması, istehsal texnikası barəsində məlumatlar olsa da, onların naxışları haqqında məlumatlara qismən rast gəlirik.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işinin başlıca məqsədi Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda mühafizə olunan toxuculuq məmulatları üzərindəki naxışlar və təsvirlərin mahiyyətini açmaq, onların etnoqrafik duyum-yozum kontekstində məna tutumunu araşdırmaq, xalqımızın məişəti və mənəviyyatı ilə bağlılığını sübuta yetirmək, etnoqrafik mənbə kimi dəyərini aşkara çıxarmaqdan ibarətdir. Bu məqsədə nail olmaq istiqamətində aşağıdakı vəzifələrin həllinə cəhd edilmişdir:

- Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mühafizə olunan xalça və xalça məmulatlarının tam elmi-etnoqrafik təsnifatını vermək;
- Xalça və xalça məmulatları üzərindəki naxışlar və təsvirlərin xalqımızın təsərrüfat məişəti (maldarlıq, ovçuluq və s.) ilə bilavasitə bağlılığını faktiki materiallar əsasında sübuta yetirmək;
- Dini inanclarla, xüsusilə də, Göy Tanrıçılıqla bağlı naxışlar və təsvirlərin ilkin məna tutumunu aşkara çıxarmaq, onların əksəriyyətinin türk etnik-mədəni mühitində yaranıb formalaşdığını üzə çıxarmaq;
- İslam dininin qəbulundan sonra xalça və xalça məmulatları üzərindəki naxışlar və təsvirlərdə meydana gələn yeni keyfiyyət dəyişikliklərini, onların inkişaf dinamikasını izləmək, məna tutumunu araşdırmaqla, ehtiva etdiyi məişət və mədəniyyətin, dünyagörüşün mahiyyətini üzə çıxarmaq;
- Türk mifologiyası, arxeoloji qazıntıların nəticələri, əfsanə, deyim, atalar sözləri, qayaüstü rəsmlər, el adətləri və s. ilə paralellər aparılmaqla, xalça və xalça məmulatları üzərindəki naxışlar və təsvirlərin ifadə etdiyi ilkin məna tutumunu, duyum və yozumunu aşkar etmək;
- Xalq sənətkarlarının empirik bilik və bacarığı, yaradıcı əməyi, zəngin sənət-peşə vərdişləri və dünyaduyumu ilə hasilə gətirilən xalçalar və xalça məmulatları üzərində, Islamdan öncə yaranmış inanclar və onlarla bağlı naxışların və təsvirlərin sonradan İslamla birgə yaşamasını, mənasını dəyişmədən İslamla uzlaşdırılmasını, bu inancların ehtiva etdiyi təsvirlərin köklərinin xalqımız arasında daha qədim olmasını bir daha təsdiqləmək.

**Tədqiqatın obyekti və predmeti**: Xalça üzərinə toxunan hər hansı naxış müəyyən bir ideyanı, dünyagörüşü, təxəyyül və fəhm imkanını ifadə edir ki, onları araşdırmaqla, xalqımızın mifoloji təfəkkürünün, inanclarının və hətta etnik tarixinin bir çox gizli məqamlarına aydınlıq gətirmək olar. İslam dininin yayılmasına qədər

xalqımız arasında müxtəlif inanclar mövcud olmuşdur ki, insanlar bu inancları ehtiva edən ayrı-ayrı naxışları və təsvir elementlərini toxuculuq nümunələri və məişət əşyaları üzərinə həkk edərək özləri də bilmədən yaşatmış, gələcək nəsillərə ötürmüşlər. İslam dininin yayılmasından sonra isə bir çox naxışlar stilizə olunaraq başqa görkəmə salınmağa başlamışdır. Bu, İslam dinində Allaha inamdan başqa inamların şirk sayılması ilə əlaqədar olmuşdur. Bununla da şübhəsiz ki, naxışların kodlarının açılmasında müəyyən əngəllər yaranmışdır. Məhz bu səbəbdən xalçalar və digər toxuculuq məmulatları üzərində olan naxışları ilk baxışdan yaranan adi görüntü kimi qəbul etmək yalnış nəticəyə gətirib çıxarmışdır. Bunları aradan qaldırmaq, naxışların və təsvirlərin həqiqi mənasını elmi-etnoqrafik baxımdan dəqiq müəyyənləşdirmək üçün tədqiqat işində qayaüstü təsvirlər (petroqliflərin), toponimlərin, şifahi xalq ədəbiyyatı nümunələrinin (əfsanələr, nağıllar, xalq deyimləri, mifoloji dünyagörüşü və s.) xalça məmulatları üzərindəki təsvir və naxışlarla paralel müqayisəli təhlili aparılaraq bəzi naxışların ifadə etdiyi ilkin məna üzə çıxarılmışdır.

Tarixi-etnoqrafik araşdırmanın əsas tədqiqat obyekti və predmeti AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda toplanan və xalqımızın yaradıcı əməyinin, zəngin mənəvi dünyasının məhsulları olan toxuculuq nümunələri, onlar üzərindəki təsvir və naxışlardır. Tədqiqata Muzeyin Etnoqrafiya Fondunda mühafizə olunan 2500-ə qədər məmulat cəlb edilmişdir. Burada həmçinin 104 baş geyimi, 78 çadra, 14 cutqu, 37 rübənd, 163 kəlağayı, örpək, 31 xınabənd, 116 canamaz, 47 cecim, 114 parça, 750 xalça və xalça məmulatı qorunub saxlanır. Bu məmulatların bəziləri üzərində heç bir naxış olmasa da, bəziləri rəmzi naxış və süjetlərlə zəngindir. Naxışlara daha çox xalça və xalça məmulatları (çul, məfrəş, kilim, palaz, duz torbası, qaşıqqabı) və qələmkarlar üzərində rast gəldiyimiz üçün, tədqiqta başlıca olaraq, bu məmulatlar cəlb edilmişdir. Bu naxışların elmi- etnoqrafik təsnifatı verilmiş, ifadə etdiyi ilkin mənası üzə çıxarılmışdır.

Milli Azərbaycan Tarixi Muzeyinin çoxçalarlı maddi-mənəvi irsimizin qorunmasında və zənginləşməsində böyük rolu danılmaz həqiqətdir. Muzey, həmçinin, xalqımızın toxuculuq məmulatlarını xarici ölkələrdə sərgiləyərək dövlətimizin də dəstəyi ilə maddi-mənəvi irsimizə sahiblik edir. Bu səbəbdən də Muzeyin Etnoqrafiya Fondunun toxuculuq kolleksiyası dissertasiyanın tədqiqat predmetinin araşdırılmasında maddi baza kimi götürülmüşdür.

**Dissertasiya işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda mühafizə olunan 2500-ə qədər toxuculuq məmulatları və onların üzərindəki naxışlar və təsvirlər kompleks şəkildə tarixi-etnoqrafik araşdırmaya cəlb olunmuşdur.

- İlk dəfə olaraq toxuculuq məmulatları və onların üzərindəki naxışlar və təsvirlərin Neolit və Tunc dövrü (bəzi naxışların tarixi hətta Paleolit dönəminə qədər gedib çıxmışdır) məmulatları üzərində təsbit olunmuş naxışlarla eynilik təşkil etməsi, eləcə də naxışların bir çoxunun Orxon-Yenisey, yəni əski türk əlifbası əsasında formalaşması aşkara çıxarılmış, bu əlifbanın özünün də türk damğaları əsasında formalaşdığı, məmulatlar üzərində təsbit olunmuş naxışların bilavasitə əski türk damğası olduğu təsdiqlənmişdir. "And", "İççi", "ox başı", yaxud "ox" naxışları bu əlifba əsasında ərsəyə gəlmişdir.

- Ilk dəfə olaraq qələmkar məmulatları üzərindəki naxış və təsvirlər geniş tarixi-etnoqrafik tədqiqata cəlb olunmuşdur.

- Ciddi etnoqrafik mənbə hesab edilən toxuculuq nümunələri üzərindəki naxış və təsvirlərlə xalqımızın kimliyi, soykökü, başqa xalqlarla etnik-mədəni teması, mədəni-iqtisadı əlaqələri öyrənilmiş, bir sözlə, xalqın milli siması, dünyaduyumu, təxəyyül və fəhm imkanları müəyyənləşdirilmişdir.

- İlk dəfə olaraq naxışlar Qədim Şərq mədəniyyəti üçün xarakterik olan silindr möhürlər üzərindəki simvollarla paralel şəkildə tədqiqata cəlb edilmişdir.

- Dissertasiya işinin yazılması zamanı bir çox naxışın düzgün araşdırılmadığı üzə çıxarılmış və onların ifadə etdiyi ilkin məna müəyyən edilmişdir. Bu baxımdan "İç" naxışını, Umay ilahəsinin təsvirini göstərə bilərik. Belə ki, bu vaxtadək Umay ilahəsinin yalnız simvolları tədqiq olunurdusa, dissertasiya işində Umayın təsviri olan xalçalar üzə çıxarılmışdır.

- Zaman-zaman yaddaşlardan silinərək el adları ilə tanınan xalçaların üzərindəki naxış və təsvirlərin əsl mahiyyəti üzə çıxarılmışdır. Bu baxımdan "Buynuz" adı ilə tanınan məşhur Azərbaycan xalçası üzərində əslində "Umay" ilahəsinin təsvir olunduğu sübut edilmişdir.

- Fondda mühafizə olunan 5169 inventar saylı xalça tamamilə oxunmuş və unikal süjet xəttinin izahı verilmişdir.

- Quba məktəbinə aid “Qollu Çiçi” xalçasına məxsus çeşninin qədim türk mifologiyasından qaynaqlandığı, türk xalqlarına məxsus dini inanclarla bağlı olduğu aşkara çıxarılmışdır.

- Dissertasiyanın elmi yeniliklərindən biri də Azərbaycanda çox az işlənmiş, hətta demək olar ki, tədqiq olunmamış qələmkar məmulatı üzərində olan naxış və təsvirlərin tədqiqata cəlb edilməsidir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Dissertasiya, nəzəri-praktik araşdırma səciyyəsi daşıyır və muzey fondlarında saxlanılan maddi mədəniyyət nümunələri üzərindəki naxış və təsvirlər ilə xalqın etnik-mədəni sisteminin öyrənilməsində olduqca böyük əhəmiyyətə malikdir. Tədqiqat işi xalqın qədim dünyagörüşlərinin, məşğuliyyət sahələrinin və dini inanclarının toxuculuq məmulatları üzərində naxış və təsvirlər şəklində maddiləşmiş elementlərini araşdırdığından, onun materialları bu sahəyə uyğun gələcək araşdırmalarda nəzəri istiqamət rolunu oynaya bilər. Dissertasiyanın materiallarından Azərbaycan etnoqrafiyasına aid ümumiləşdirilmiş əsərlərin yazılmasında, xalqımızın etnik-mədəni tarixi, mənəvi dünyası, tətbiqi sənət mədəniyyətinə həsr olunmuş əsərlərin və dərsliklərin hazırlanmasında, ali məktəblərin humanitar təmayüllü fakültələrində ixtisas kurslarının keçirilməsində və s. istifadə oluna bilər. Xalqımızın dünya mədəniyyətinə sürətlə inteqrasiya etdiyi bir dövrdə naxış yaddaşını yaşatmaq, toxuculuq məmulatlarının milliliyini qorumaq baxımından dissertasiya işi olduqca əhəmiyyətlidir.

Ermənilərin maddi-mədəniyyət nümunələrimizi, xüsusilə də, milli-mənəvi qürurumuz, türk xalqlarının “vizit kartı” sayılan xalçalarımızı özününküləşdirməyə çalışdığı müasir dövrdə bu mövzunun dərindən araşdırılaraq dünya ictimaiyyətinə çatdırılması baxımından da dissertasiya işi əhəmiyyətlidir.

**Dissertasiya işinin aprobasiyası.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi-fond şöbəsində yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür. Aparılan tədqiqat işinin əsas nəticələri məqalə və tezislər şəklində Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallarda çap olunmuş, müəllifin elmi-nəzəri və elmi-praktik konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, altı yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısı, məlumatçıların siyahısı və illüstrasiyalardan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, mövzunun öyrənilmə səviyyəsi araşdırılmış, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Həmçinin tədqiqatın məqsəd və vəzifələri müəyyən olunmuş, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir. Bununla yanaşı, tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunun toxuculuq məmulatlarının təsnifatı"** adlanan birinci fəsildə MATM EF-da mühafizə olunan toxuculuq məmulatlarının sayı, hər bir məmulatın ayrılıqda təsnifatı verilmişdir. Bu fəsildə xalça və xalça məmulatları, tarixi hadisələrlə əlaqədar süjetli məmulatlar, qələmkar, tikmə, geyim məmulatları haqqında ətraflı məlumat verilmişdir. Daha geniş yer isə xalça və xalça məmulatlarına ayrılmışdır. Belə ki, bu məmulatlar üzərinə toxunan naxışlar daha əhəmiyyətlidir. MATM EF-da qorunub saxlanan xalça məmulatlarını öz növbəsində xovlu xalçalar, xovsuz xalçalar, xurcunlar, heybə və yəhər qaşları, məfrəşlər, çuval və torbalar, çullar, yəhərüstülər, digər məişət əşyaları (duz torbası, yem torbası, qaşıq qabı, təknə qabı, çiyinlik, süfrə, örkən, sicim, beşik ipi və s. ) kimi qruplaşdıra bilərik.

Bu fəsilin yarımfəsillərindən biri xalça və xalça məmulatlarına həsr olunmuşdur. Hər bir xalça məmulatı və təyinatı haqqında ətraflı məlumat verilmişdir. Burada maldar elatların daha çox istifadə etdiyi məişət məmulatları içərisində başlıca yer tutan xalça məmulatlarından biri olan palaz haqqında da məlumat verilmişdir. Azərbaycanda palaz və kilimlərdən alaçıqlarda, dəyələrdə, həmçinin toyxanalarda istər daxili bəzək-döşəmə, istərsə də xarici örtük üçün istifadə olunurdu. Etnoqrafiya Fondunda 24 ədəd palaz mühafizə olunur.

Dissertasiyanın bu fəslində göstərilir ki, fondda mühafizə olunan qələmkarların fərqli cəhəti onların üzərində xarakterik nəbati naxışlarla yanaşı, digər toxuculuq məmulatlarında (xalça və xalça məmulatlarının bəziləri istisna olmaqla) artıq nadir hallarda istifadə olunan simurq və başqa quşların təsvirinin olmasıdır. Xalq arasında artıq istifadə olunmayan bu məmulatlar üzərində xalqımızın tarixi-etnoqrafik həyatı barədə maraqlı məlumatlar əldə etmək mümkündür.

**"Digər toxuculuq nümunələrinin təsnifatı"** adlı birinci fəslin ikinci yarımfəslində müxtəlif tikmələr, qələmkarlar və s. üzərində olan naxışlar tədqiq olunmuşdur. Fondda çox sayda tikmə nümunələri

mövcuddur. Burada təkəlduz, pilək, qondarma, güləbətin kimi tikmələr vardır. Fondda 87 güləbətin, 64 təkəlduz tikmə qorunub saxlanır. Onların üzərinə müxtəlif naxışlar salınmışdır. Bu naxışların bəziləri, bir növ, xalçalar üzərindəki naxışların təkrarıdır. Lakin qeyd etmək lazımdır ki, burada, əsasən, nəbati naxışlar üstünlük təşkil edir. Bununla yanaşı, buta, xaç, dairə və romb kimi həndəsi naxışlar da vardır. Tikmələrdən bəziləri üzərində "Hünərnamə" əsərində göstərilmiş Bayat boyunun damğası təsvir olunmuşdur (inv. 6574, 7773).

Bu yarımfəsildə fondda mühafizə olunan geyim növlərinin təsnifatı da aparılmışdır. MATM EF-da müxtəlif kişi və qadın geyimləri mühafizə olunur ki, bunların bəziləri üzərində etnoqrafik əhəmiyyətli naxışlar vardır. Bu geyimlərdən bəziləri üzərinə xalça naxışları toxunmuşdur. 190 inventar saylı geyim nümunəsi üzərində Salur boyunun damğasını izləmək mümkündür. Geyim hər bir xalqın etnogenezinin, dünyagörüşünün, etik normalarının göstəricisi olduğuna görə onlar üzərindəki naxışların araşdırılması elmi əhəmiyyət kəsb edir.

**"Təsərrüfat məişəti ilə bağlı naxışlar"** adlı ikinci fəsildə "qoç buynuzu", it, dəvə, at təsvirlərinin mənşəyi, xalqımızın təsərrüfat həyatında mühüm yer tutmasından bəhs olunmuşdur. Toxuculuq sənəti tarixən birbaşa maldarlığın inkişafı ilə bağlı bir sənət sahəsi olmuşdur. Bu səbəbdən də toxuculuq nümunələri üzərində maldarlıqla əlaqədar naxışlara daha çox rast gəlmək mümkündür. İnsanlar öz dünyagörüşlərindən, təxəyyül və fəhm imkanlarınafn irəli gələn fikirləri toxuculuq nümunələrinin ən mükəmməli olan xalçalar və digər bəzək nümunələri üzərinə həkk etsələr də, onlar dini təsəvvürlərin, dünyagörüşünün dəyişməsi nəticəsində ilkin məna çalarlarını itirərək sadə bir naxış halına gəlmişdir. Lakin xalçalarımızda öz əksini tapmış hər bir naxış rəmzi xarakter daşıyır və bir çox hallarda xalqın təsərrüffat həyatı ilə birbaşa bağlı olur. Bu naxışların ən geniş yayılmış olanı buynuz naxışıdır ki, xalq arasında əsasən, **"qoç buynuzu**" kimi tanınır. Xalçalarımızın bir çoxunda rast gəldiyimiz qoç buynuzu motivi türk xaqlarının bir çoxunda aktual bəzək motivi kimi işlədilir. Dadlı ətinə, məişətdə müxtəlif ləvazimat və geyim məqsədilə istifadə edilən əvəzsiz dərisinə, gözəl yununa görə qoç çox qədimlərdən ulu babalarımız üçün bolluq və qələbə simvoluna çevrilmişdir. Əsasən mərkəz hissələrdə toxunmuş bu naxışın meydana gəlməsi xalqımızın təsərrrüfat həyatı ilə əlaqədardır. Belə ki, tarixən Azərbaycanın müəyyən bölgələri maldarlıq sahəsi üzrə inkişaf etmişdir.

AMEA MATM EF-in zəngin toxuculuq nümunələri içərisində çox sayda buynuz motivli toxuculuq nümunələri mövcuddur ki, onların arasında bu motiv, yuxarıda da qeyd etdiyimiz kimi, xalçalar üzərində daha geniş yer alır. Qələmkarlar üzərində bu naxışı izləmək mümkün deyil. Xalçalar və Muzeyin digər toxuculuq nümunələri üzərində bu naxışı tez-tez və aydın şəkildə müşahidə etmək olur (məfrəş, xurcun, heybə və s.). Zamanla maldarlıq təsərrüfatını simvolizə edən qoç-qoyun nəinki xalçalarda, hətta gil qabların üzərində, qəbirüstü abidələrdə və başqa sənət sahələrinə aid nümunələrdə də öz əksini tapmağa başlamışdır. Azərbaycan xalqı arasında "şücaət" və "gözə gəlməmək" simvolu olaraq həyət yaxud ev qapılarının üstündə, buynuzlu heyvanların (qoç, maral yaxud ceyran) kəllələrini qoymaq adət idi.

Fondun xalçaları və xalça məmulatları üzərinə heyvandarlıqla əlaqədar toxunan təsvirlərdən biri də **dəvə** təsvirləridir. Dəvəçilik Azərbaycanda hazırda tənəzzülə uğrasa da, keçmişdə bu təsərrüfat növü kifayət qədər geniş ərazidə yayılmışdı. Dəvələrin Azərbaycanda nə vaxtdan istifadə olunmasına aid dəqiq məlumat olmasa da, bu tarixin II minilliyin sonu və I minilliyin əvvəli ilə bağlı olduğunu söyləmək olar. Fondda Şirvanın məşhur "Şahnəzərli" xalçası da mühafizə olunur ki, onun üzərində də dəvə təsvirlərini müşahidə edirik. Bu xalça üzərində düzbucaqvari fiqurun içərisində tək hörgüclü dəvə toxunmuşdur. Təsvirin sağ və solunda iki dəvə toxunmuşdur. 6858 inventar nömrəli Qazax xalçası üzərində həm bir, həm də iki hörgüclü dəvə təsvir olunmuşdur. 6836 inventar nömrəli Quba xalçası üzərində də tək hörgüclü dəvə müşahidə edirik. Digər bir nümunədə isə toxuculuq məmulatlarından biri olan şəddə dəvə təsvirləri ilə zəngindir (Ef. inv. 9474). Məhz elə bu səbəbdəndir ki, şəddə "Dəvəli" adı ilə məşhurlaşmışdır. Şəddə üzərində dəvələrin qatar düzülüşü dəvələrdən əsasən nəqliyyat vasitəsi kimi, karvan yollarında istifadə olunmasına dəlalət edir. Qeyd edək ki, Azərbaycanda iki hörgüclü dəvələrlə yanaşı, tək hörgüclü dəvələrdən də istifadə olunmuşdur. Bu fəsildə dəvə ilə əlaqədar müxtəlif inanclar, deyimlər tədqiq olunmuş, onun Azərbaycan təsərrüfatında yeri və toxuculuq məmulatları üzərinə toxunması məsələlərinə aydınlıq gətirilmişdir.

Azərbaycan toxuculuq məmulatları üzərində özünəməxsus yeri olan təsvirlərdən biri də **at** təsvirləridir. Heyvandarlıq təsərrüfatının inkişafında mühüm rol oynayan atdan xalqımızın təsərrüfat həyatında geniş istifadə olunmuş və zaman keçdikcə at dədə-babalarımız tərəfindən ilahiləşdirilmişdir. Azərbaycanda Qarabağ atı, Qazaxın

Dilboz atı, Şirvan atı və Quba yorğası cinsləri geniş yayılmışdır. Toxuculuq məmulatları üzərində at təsvirlərinə əsasən Qarabağ xalça və xalça məmulatlarında tez-tez rast gəlinir. İstər çullar, istərsə də xalçalar üzərində təsvir olunmuş atların xarakterik cəhəti onların quyruqlarının və ayaqlarının stilizə olunmasıdır.

Toxuculuq məmulatları üzərində heyvandarlıqla bağlı işlənmiş digər təsvir **it** təsviridir. Türk soylu mənşəyimizi nəzərə alsaq, türk xalqlarında it kultunun mövcud olduğunu və hətta şamanların boyunlarına it heykəlləri asdığını görərik. Bütün türk xalqlarının qayaüstü təsvirlərinin, mifoloji dünyagörüşünün, emblemlərinin təsvir olunduğu xalçalarımızda belə bir naxışın olması çox maraqlıdır. Həmçinin sakların Azərbaycan mədəniyyətinə olan təsirindən xəbər verən daha bir tutarlı dəlildir. Məlum olduğu kimi, islam qanunlarına əsasən canlıların təsvirinin verilməsi qadağandır. Lakin bu xalçalar üzərində köpək təsvirlərinin istifadəsinə mane ola bilməmişdir. İslam dininin qəbulundan sonra ovun ritual şəklində inanclarla əlaqədar deyil, əsilzadələr arasında bir idman-əyləncə növünə çevrilməsi, həmçinin "Kəhf" surəsində itin mağaraya sığınmış müsəlman gənclərin keşikçisi kimi göstərilməsi itin önəmini artırmışdır. Genetik yaddaşına sadiq qalan xalqımız itin hətta XIX-XX əsrlərdə də xalça üzərinə toxunmasını davam etdirmişdir. Bu təsvirlər araşdırıldıqda belə nəticəyə gəlmək olar ki, it təsvirləri yalnız keşikçi kimi deyil, qədim inanclarla da əlaqədar toxunmuşdur.

**"Ovçuluq təsərrüfat tipi ilə bağlı naxışlar"** bölməsində MATM EF-da tarixi-etnoqrafik baxımdan tədqiqat üçün əhəmiyyətli olan təsvirlərdən biri də ovçuluq təsərrüfat tipi ilə bağlı yaranmış süjetli təsvirlərdir. İstər İskit mədəniyyətində, istərsə də Hun sənəti üçün heyvanların mübarizəsini təsvir etmək ənənəsi xarakterikdir. Məsələn, belə səhnələrdən birini Pazırıq kurqanından tapılmış keçə örtüklərinin üzərində görmək olar. Azərbaycan xalçalarının da bir çoxu üzərində bu cür vəhşi heyvanların ov səhnələri bütün təbiiliyi və canlılığı ilə təsvir edilmişdir. Bu süjetli məmulatlar üzərində bəzən insanların ov məşğuliyyəti, bəzən isə vəhşi heyvanların ov səhnələri təsvir olunur. Təbriz xalçaçılıq məktəbinə xas olan "Xosrov və Şirin" adlı xalçada ovçuluq səhnəsi təsvir edilmişdir (Ef. inv.6055). Xalçanın üzərində Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından müxtəlif səhnələr təsvir edilmişdir. Bu səhnələr Orta əsrlər dövrü saray mühiti üçün xarakterik olub, Azərbaycanın mənəvi mədəniyyətini əks etdirən musiqi, oyun və əyləncələr, xüsusən "Çövqan oyunu" və "Ovçuluq"

səhnələrindən ibarətdir. Xalçada həmçinin “İstirahət”, “Döyüş səhnəsi”, Azərbaycanın bədii sənətkarlığında geniş yayılmış heyvan və nəbati təsvirləri də yer almışdır. Mərkəzi hissədə ərəb əlifbası ilə “Xosrov və Şirin” yazılmışdır.

**Dissertasiyanın “Dini inanclarla bağlı naxışlar"** adlı fəslində türk xalqlarının dini inanclarının formalaşmasında mühüm yer tutmuş Tanrıçılıq, yaxud şamanizm və islam dininin yayılmasından sonra yaranmış naxış və təsvirlər tədqiq olunmuşdur.

Bütün qədim sivilizasiyalarda olduğu kimi, türk xalqlarının da yaratdığı milli-mənəvi və maddi dəyərlər panteonunda özünəməxsus inanclar sistemi mövcud olmuşdur. Müxtəlif inanclar xalqın mənəvi həyatında özünə ayrılmaz bir yer tutur və bütün mənəvi dünyanın əks edildiyi sahələrdə özünü biruzə verir. İstənilən bir inanc nağıllara, mifoloji dünyagörüşünə və onlarla birbaşa bağlı olan xalq tətbiqi sənət nümunələrinə və onların üzərindəki naxışlara təsir edir. Monoteist dinlərədək mövcud olmuş inanclar xalqın mənəviyyatında o qədər güclü bir yer tutur ki, hətta sonrakı dövrlərdə də bu dinlərlə uzlaşdırılaraq, qorunub saxlanır. Hazırda da islam dinini və ya xristianlığı qəbul etmiş bu xalqlar arasında şamanizmin qalıqları qalmaqdadır.

Toxuculuq məmulatları üzərində ən çox diqqət çəkən naxışlardan biri **romb**dur. Qarabağ xalça məktəbinə xas olan “Açma-yumma”, “Malıbəyli”, Şirvanın “Molla Kamallı”, “Əlixanlı”, “Ərciman”, “Gəzməli kilim” adı ilə məşhur olan xalçalar üzərində də bu naxışı izləyirik. Fondda olan xalça və xalça məmulatları üzərində isə bu motiv tək işlənmir. Onunla birgə adətən ox başı motivi, xaç və ulduz naxışları işlənir. Tədqiqat zamanı naxışın romb kimi öz başlanğıcını qadın heykəlindən götürdüyü, sonradan nəzərdən qorunma simvoluna çevrildiyi qeyd olunur. Bu yarımfəsildə “Bilici”, “Qara-Qoyunlu” kimi məşhur xalçalarımız üzərində tədqiqat aparılmışdır.

Qədim inanclarla bağlı toxuculuq məmulatları və onların ən mükəmməl nümunəsi olan xalçalar üzərində tez-tez rast gəldiyimiz **bərabərtərəfli xaç** yaxud, bəzi elmi ədəbiyyatda qeyd olunduğu kimi “üstəgəl” , “artar” elementinin tarixi çox qədimdir. Azərbaycanda bu elementdən hələ eramızdan əvvəl istər inşaat sahəsində, istərsə də sənətkarlıq sahəsində (tunc və saxsı məlumatlar üzərində) istifadə olunmuşdur. Xaç motivinin insanların həyatında bu qədər geniş yer alması ilə bağlı bir çox fikirlər mövcuddur. Bu element, fikrimizcə, türk xalqları arasında yaranmış, digər xalqlara isə onlardan keçmişdir. Xaç elementi Azərbaycandakı toponimlər oronimlər, hidronimlər və

oykonimlərdə də özünə yaşama hüququ qazandırmışdır. Bu işarəni damğalarla paralel tədqiq etdikdə isə daha maraqlı faktlar üzə çıxır. Pazırıq kurqanından aşkar olunmuş bəzi mumiyaların üzərində döymə şəklində üstəgəl elementinə rast gəlmək mümkündür.

Xalçalarımız üzərinə qədim türk mifologiyası və dünyagörüşünün təsiri ilə toxunmuş təsvirlərdən biri də **tısbağa** olmuşdur. Bu təsviri Qarabağ xalçaçılıq məktəbinə məxsus olan "Bəhmənli" xalçası üzərində görə bilərik. Xalçalar üzərinə bir çox hallarda qoruyucu və xoş məramlı simvolların toxunduğunu və xalq arasında tısbağanın sümüyü, qabığı ilə əlaqəli inancları nəzərə alsaq, bu təsvirin də sırf nəzərdən qorunma, uzun ömürlülük simvolu olduğunu və türk xalqlarının dini görüşlərində özünə möhkəm yer tutduğunu düşünürük.

Toxuculuq məmulatları üzərində daha çox rast gəlinən naxışlardan biri müxtəlif tədqiqatçılar tərəfindən gül, şamdan və s. adlarla təqdim olunan, bizim isə **"iççi**" adlandırdığımız naxışdır. Bu naxışın araşdırılması zamanı tədqiqata daha çox xalqımızın dünya şöhrətli xalçalarından Quba qrupuna daxil olan "Qollu Çiçi" xalçasını cəlb etmişik.

Bu elementin türk mifologiyası ilə bağlı yarandığı, sonradan stilizə olunaraq, ağac, gül və başqa şəkillərə salınması qənaətinə gəlinmişdir. Beləliklə, "iç" və ya "iççi" elementi kökü şamanlıqdan günümüzə gələn, qoruyucu ruh mənası daşıyan qədim türk xalqlarına məxsus elementdir. Elementin türk xalqları mifologiyasında xeyirxah, göz və bəd nəzərlərdən qoruyucu, həmçinin uğur gətirən bir ruhu simvolizə etdiyi aydın olur.

Azərbaycan xalçaları üzərində özünə yer tapan naxışlardan biri də **"Umay"** ilahəsinin təsviridir. Bu təsvirə xalçalarımız üzərində bəzən sırf ilahə şəklində siluet kimi, bəzən isə onu rəmzləndirən işarələr şəklində təsadüf edirik. Fondda mühafizə olunan üç xalça üzərində vaxtilə Umayı ifadə etmiş, sonralar stilizə olunmuş təsvir aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, bu zamana qədər Umayın təsviri Azərbaycan xalça və xalça məmulatlları üzərində araşdırma mövzusu olmamışdır. İslam dininin yayılmasından sonra Umayla bağlı inanclar türk xalqlarının bir çoxunun yaddaşlarından ya silinmişdir, ya da başqa bir islami obrazla əvəz edilmişdir. Belə ki, Umay obrazını Fatimeyi-Zəhra obrazı əvəz etmişdir.

Azərbaycan dekorativ tətbiqi sənətində ən çox istifadə olunan naxışlardan biri də **buta**dır. Buta zaman-zaman gözəllik rəmzinə çevrilmişdir. Xalq sənəti nümunələrinin demək olar ki, hamısında buta o

qədər geniş istifadə olunmuşdur ki, onun müxtəlif formaları yaranmağa başlamışdır. Buta öz müxtəlifliyi ilə toxuculuq nümunələrindən ən çox qələmkarlarda və xalçalarda istifadə olunmuşdur.

Muzeyin kolleksiyasında sırf butalardan ibarət xalçalara da rast gəlmək olar. Məsələn, Bakının XX əsrin əvvəllərinə aid "Xilə", Qarabağın "Şabalıdbuta", Şirvanın "Sor-sor", Təbrizin "Sənnə", Gəncənin "Xan tirmə" adlı xalçaları bu qəbildəndir.

Türk xalqları arasında mövcud olmuş inanc sistemlərinin içərisində təbiət kultu və onun ayrılmaz hissəsi olan **ağac kultu** mühüm yer tutmuşdur. Ağac motivi demək olar ki, dünya xalqlarının bir çoxuna məxsus maddi mədəniyyət abidələrində öz əksini tapmış və tədricən həyat ağacı adını almışdır ki, bu da təsadüfi deyildir. Belə ki, sivilizasiyanın beşiyi kimi Qədim Şərqdən yayılan mədəniyyət zaman-zaman bütün dünyaya müxtəlif əlavələr və dəyişikliklərlə yayılmışdır. Həyat ağacı naxışı qələmkar məmulatları üzərində də tez-tez görülür.

Azərbaycan toxuculuq məmulatları üzərində ən çox işlədilən elementlərdən biri də **"su"** lardır. Ümumi haşiyə quruluşunda qurşaqları bir-birindən ayıran düz xətt "su" zolağı adlanır. Adətən, haşiyədə istifadə olunan su simvolu ilə bağlı yaranan naxışların kökü də xalqın dini inancları ilə uzlaşır. Toxuculuq məmulatlarımız üzərində müxtəlif adlarla tanınan su naxışları mövcuddur. Məsələn, "tək su", "içli su", "qoşa içli su", "cüt qoşa sular", "enlisu", "köhnə su", "kəsmə". Fondda bütün toxuculuq nümunələri üzərində müşahidə etdiyimiz naxış məhz su naxışıdır.

Bu fəsildə **quş təsvirləri**nə və onların etnoqrafik təhlilinə də toxunulmuşdur. Quş təsvirlərini daha çox xalça və xalça məmulatları üzərində görə bilərik. MATM EF-da belə toxuculuq nümunələrinə çoxlu sayda rast gələ bilərik. 7186 inventar nömrəli Qazax xalça məktəbinə xas xalçalardan birinin mərkəzi bütünlüklə müxtəlif quşlarla bəzədilmişdir. 6738 inventar saylı Şirvan xalçası üzərində iki kəklik quşu təsvir olunmuşdur.

Qələmkarlar üzərində daha çox iri simurq quşları təsvir olunmuşdur. 1682, 7134, 7576, 7689, 7691, 7766, 7800, 7801, 8105, 8467, 8511 inventar saylı qələmkarlar üzərində təsvir olunmuş simurq quşları buna misaldır. Qeyd edək ki, bu quş türk mifologiyasında olduqca mühüm mövqe tutsa da xalça və xalça məmulatları üzərində stilizə olunsa da, qələmkarlar üzərində bütün gözəlliyi və təbiiliyi ilə qorunub saxlanmışdır.

Xalçalar üzərində ən çox rast gəlinən naxışlardan biri də **"əjdaha",** yaxud "ilan" naxışıdır. Bu naxış xalçalara spiralvari "S" şəklində toxunmuşdur. Azərbaycan xalça məktəblərinin, demək olar ki, hamısında bu naxışı görmək mümkündür. Qarabağ qrupu xalçalarda isə bu daha aydın nəzərə çarpır. Hətta Şirvan-Qarabağ məktəbində sırf "Əjdahalı" adı ilə məşhurlaşmış xalçalar da vardır. Qarabağ ərazisində toxunan vərnilər üzərində də stilizə edilərək boydan-boya "S" şəklinə gəlmiş əjdaha naxışı təsvir edilib. MATM EF da mühafizə olunan bir çox xalça üzərində bu naxışı izləyə bilirik. Lakin "Əjdahalı", "Malıbəyli (inv. 7185) xalçaları üzərində və 9334 inventar saylı Qarabağ vərnisi üzərində bu təsviri daha iri həcmdə müşahidə etmək olar.

Fondda mühafizə olunan bir çox toxuculuq nümunələri xalça, xalça məmulatları, çul, məfrəş və s. üzərində, türk xalqları arasında **"bukağı"** adı ilə tanınan naxışa da rast gəlirik. 6779, 8883, 8884 inventar nömrəli məfrəş, eləcə də, 1088, 8141 inventar nömrəli at və dəvə çulu üzərindəki naxış bu qəbildəndir. "Bukağı" xalçalarda ailə birliyinin davamını, sevgililərin bir-birinə bağlılığını rəmzləndirməklə yanaşı, sivri ucları ilə kəm gözləri kor etmə mənası ilə də yüklənərək qorunma atributu kimi düşünülmüşdür.

Muzeyin toxuculuq məmulatları üzərində rast gəldiyimiz digər naxış türk xalqlarında "**and"** sözü kimi oxunan damğa işarəsidir. Tədqiqatlar göstərir ki, and türk xalqları üçün olduqca vacib bir ritual sayılardı. Xalqımız arasında bu ritualı təsdiq edən fakt elə "and içmək" ifadəsinin özündə gizli qalmışdır. Sonralar İslam dininin təsiri altında bu söz qalsa da, ritual özü yaddan çıxmışdır. Anda sadiq qalmağı türk xalqlarının gözündə ucaldan səbəblərdən biri də onun Göy Tanrı ilə asosiasiya olunmasıdır. Şirvan xalçaçılıq məktəbinə aid xalçalardan biri üzərində məhz belə dairə içərisində and piktoqramı verilmişdir (inv. 5169). And damğasının bu xalçaya toxunması da təsadüfi olmayıb, onun hansısa peymanla, əhdlə bağlı olduğunu ifadə edir.

**"İslam dini ilə bağlı naxışlar"** yarımfəsildə namazlıqların toxunması, kufi xəttinin, güləbdan təsvirlərinin, müqəddəs ziyarətgahların toxunmağa başlanmasından bəhs olunmuşdur. Bütün dünyada İslamın yayılması ilə birgə yeni mədəniyyət-İslam mədəniyyəti yarandı və yayıldı. Əlbəttə ki, Azərbaycan mədəniyyətinin İslam mədəniyyəti tərkibində özünəməxsus yeri olmuşdur. İslam mədəniyyəti bədii sənət nümunələrinə və memarlıq sənətinə öz təsirini göstərmişdir. Yeni mədəniyyət toxuculuq nümunələrinə də təsirsiz ötüşməmişdir.

İslamın təsiri ilə toxuculuq məmulatlarımız üzərində aşağıdakı yeniliklər meydana gəlmişdir:

1. Namaz ayinini icra etmək üçün yeni toxuculuq məmulatı - namazlıqlar toxunmağa başlamışdır.

2. Toxuculuq məmulatları üzərində ərəb əlifbası ilə müxtəlif dini mahiyyətli yazılar (Qurandan ayələr və müqəddəslərin adları) yazılmağa başlamışdır.

3. İslam tətbiqi sənət nümunələri və memarlığı üçün xarakterik olan arkaların, müqəddəs ziyarətgahların (Kəbə və başqa ziyarətgahların) təsvirləri toxunmuşdur.

4. Dini mərasim və ayinlərdə istifadə olunan əşyaların (güləbdan, möhür, təsbeh və s. ) təsvirləri toxunmuş məmulatların sayı artmışdır.

Ərəblərin dövlət dili olan ərəb dili müqəddəs Qurani-Kərimin dili olduğu üçün yerli xalqlar arasında da geniş yayılmışdır. Bu səbəbdən XIX əsrin ikinci yarısına qədər Azərbaycanda da toxuculuq məmulatlarının bir çoxunda ərəb hərfləri və rəqəmlərindən istifadə olunmuşdur. Məsələn, MATM EF-da saxlanılan 8781 nömrəli inventarın haşiyəsinə, 9521 nömrəli inventarın isə üzərinə ərəb hərfləri toxunmuşdur. Qeyd edək ki, ərəb əlifbası ilə müxtəlif yazılara (məmulatın toxunduğu vaxta, onu toxuyanın adına) yalnız xalçalar üzərində deyil, həm də qələmkarlar üzərində də rast gəlirik. Toxuculuq məmulatlarından əsasən qələmkarlar üzərində müqəddəs Qurandan ayələr və müxtəlif tutumlu yazılar görə bilərik.

İslam mədəniyyətinin təsiri altında yaranan ilk toxuculuq nümunəsi namazlıqdır. Namaz zamanı alının toxunduğu möhür, təsbeh, “saqqal darağı”, bəzən xırda dış çöpü, misvak-bütün bu əşyalar cənamaza toxunurdu.

Dissertasiyanın bu fəslində qələmkarlar üzərinə toxunmuş güləbdan təsvirlərindən də bəhs olunmuşdur. İslam dini ilə qarşılıqlı inkişaf edən mədəniyyət nümunələrimiz üzərində bəzi təsvir və naxışlar uyğunlaşdırlaraq, bəzən isə İslami dona bürünərək öz mövcudluğunu qoruya bilmişdir..

Beləliklə, araşdırmalarımızın nəticəsi olaraq qeyd edə bilərik ki, İslam mədəniyyəti toxuculuq nümunələrimiz və ümumiyyətlə, mədəniyyətimizə yeni dəst-xətt gətirmişdir. İslamın təsiri ilə toxuculuq məmulatları üzərində nəbati naxışlar daha tez-tez təsvir olunmağa başlamışdır. İslami qadağalara baxmayaraq, istər miniatür sənəti, istərsə də süjetli məmulatların sayı xeyli artmışdır. Belə nəticəyə gəlmək olar ki, İslam köhnə dinin qalıqlarına qadağalar tətbiq etsə də, toxuculuq

məmulatları üzərində bəzi təsvirlərin verilməsini günah hesab etməmişdir.

Dissertasiya işinin əsas yekunları **"Nəticə"** hissəsində verilmişdir. Azərbaycan xalqının milli sərvəti olan toxuculuq məmulatları, xüsusilə də xalçalarımızın toxunma texnologiyası, rəng çalarları, bölgələr üzrə təsnifatı sənətşünaslıq və tarixi araşdırma mövzusu olsa da, onlar üzərinə toxunmuş naxışlar tarixi-etnoqrafik tədqiqatlardan kənarda qalaraq keçmişdən günümüzə gəlib çatmış böyük bir etnoqrafik məlumat bazasını özündə yaşadır. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya Fondunda mühafizə olunan toxuculuq məmulatları üzərində apardığımız araşdırmalar təsdiq edir ki, digər türk xalqları kimi, Azərbaycan xalqı da mənəvi təfəkküründə yaşatdığı dünyagörüşünü, təxəyyül və fəhm imkanlarını, empirik bilik və bacarıqlarını, dini inanclarını naxışlar şəklində xalçalara toxumuş, bu gün də öz dəyərini itirməyən kamil sənət əsərləri, milli sərvətlər ərsəyə gətirmişlər.

Apardığımız tarixi-etnoqrafik araşdırma nəticəsində o da məlum olmuşdur ki, məmulatlar üzərindəki tarixi naxışların çoxunun ilkin mənası, duyumu və yozumu unudulmuşdur. Bu səbəbdən də həqiqəti bərpa etmək, naxışların ilkin yozum və mahiyyəti üzrə mənasını özünə qaytarmaq üçün tədqiqat işi türk mifologiyası, əfsanə, deyim, atalar sözləri, qayaüstü rəsmlər, el adətləri və s. ilə paralellər aparılmaqla yazılmışdır. Bəzi naxış və təsvirlərin mahiyyəti tarixi-etnoqrafik dəlillərlə aşkar edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:**

1. Azərbaycan xalçalarında zoomorf elementlər: it təsvirləri (MATM materialları əsasında) // Azərbaycan xalçaları. Cild 4, № 11, 2014. s.66-72.
2. Milli Azərbaycan Tarixi Muzeyinin unikal süjetli Şirvan xalçası // Milli Az'rbaycan Tarixi Muzeyi toplusu. Bakı, 2014. s.371-379.
3. Azərbaycan xalçalarında türk mifologiyasının izləri. // AMEA-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, № 1, 2014. səh. 165-175.
4. Azərbaycan toxuculuq məmulatları üzərində dini inanclarla bağlı bəzi naxışlar // Milli Azərbaycan Tarixi Muzeyi toplusu. Bakı, 2015. s.351-359.

5. Xalçalara həkk olunmuş etnoqrafiya. / IV Uluslararsı Türk el dokumları ve gelenekli sanatlar kongresi. Sanat etkinlikleri. Bakı, 02-05.10.2012. səh. 309-317.
6. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fomdunda mühafizə olunan qələmkar məmulatları etnoqrafik mənbə kimi. / Görkəmli tarixçi-alim S.Aşurbəylinin anadan olmasının 110 illik yubileyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" VI Respublika elmi konfransı. Bakı, 23 iyun, 2016. S. 282-285.
7. Уникальный Ширванский сюжетный ковер, хранящийся в Национальном Музее Истории Азербайджана. // Гилея, выпуск 93 (2). Киев, 2015. стр. 166-170.
8. Horse description and horse cult on Azerbaijan weaving wares. P.10-12. Збирник Науковых Прац «Велес». Киев.06 липня 2015. Səh.6-10.
9. Azərbaycan xalçalarında Umay ilahəsinin izləri// MATM toplu. Bakı, 2016. s. 366-375.
10. Eski ve Orta çağ döneminde türk devletçiliyinde uygulanan simgeler Azerbaycan halıları üzerinde. VII uluslarası türk sanatı, tarihi ve folkloru kongresi/sanat etkinlikleri. Bakı, 11-15 aprel 2017. S.37-45

**Севиндж Акиф kызы Насирова**

**Узоры на ткацких изделиях как этнографический источник (на основе коллекции Национального Музея Истории Азербайджана )**

## РЕЗЮМЕ

Диссертация посвящена узорам на ткацких изделиях Азербайджана. Исследование состоит из введения, трех глав, заключения, списка литературы и иллюстраций.

В введении обоснована актуальность темы, степень ее изученности, определен объект исследования, предмет, цели и задачи, указаны теоретические и методологические основы работы, научная новизна, практическое значение и апробация.

Первая глава диссертации «Классификация ткацких изделий, хранящихся в фонде этнографии Национального Музея Истории Азербайджана» посвящена ткацким изделиям имеющихся в фонде особенно коврам, ковровым изделиям, батику, вышивке, одежде. Здесь, наряду с узорами также дана обширная классификация ткацких изделий с орнаментом историко-этнографического характера.

Вторая глава диссертации «Узоры, связанные с хозяйственным бытом» посвящена узорам и изображениям хозяйственной деятельности. Рассматриваются, в основном, узоры, относящиеся, к таким видам хозяйства, как скотоводство и охота. Раскрыт смысл этих узоров и обосновано их бытование в религиозных верованиях и в наше время. Если учесть то, что ткацкое ремесло развивалось во взаимосвязи со скотоводством, появление на тканях узоров, имеющих отношение к скотоводству как виду хозяйственной деятельности, было неизбежным. Наряду с развитием этой отрасли хозяйства появились различные верования, связанные с отдельными животными. Охота, как одно из видов хозяйственной деятельности, с течением времени приобрела в жизни людей форму развлечения.

В третьей главе «Узоры, относящиеся к религиозным верованиям» параллельно исследуются мировоззрение тюркских народов, их мифология, археологические артефакты. В главе исследованы вопросы связей узоров с верованиями, бытующими в народе и сегодня. Выявлено, что вытканные на ткацких изделиях узоры сформировались, в основном, на почве религиозных верований.

В заключении подводены итоги исследования. Автор пришел к выводу, что узоры на данных изделиях присущи исключительно тюркской этнической культурной среде и являются ценным источником в изучении мифологических представлений, бытовой культуры, этногенеза народа.

**Sevinje Akif kizi Nasirova**

**The patterns on the weaving materials as the ethnographic source (based on the collection of National Museum of History of Azerbaijan)**

**SUMMARY**

The thesis devoted to the patterns on the weaving materials of Azerbaijan. The research consists of introduction, three chapters, conclusion, list of references and illustrations.

In the entry is indicated the actuality of the subject, chronological framework, the study of the problem, theoretical and methodological base, aim and duties of the research, the theoretical and practical significance of it, and is given information about ways and structure of the work.

The first chapter of the work called “The classification of weaving materials keeping in the found of Ethnography of National Museum of History of Azerbaijan” devoted to the weaving materials, particularly to the rugs, rug materials, batics, embroidery, clothes having kept in the found. Wide classification of patterns of weaving materials with depictions of historical-ethnograhical characters is given here, too.

The second chapter of thesis called “The patterns connected with farm life” devoted to the patterns and descriptions relating with different economical-household activities, mainly the patterns relating to the household as cattle and shooting are considered. The ideas of these patterns are researched, their usage in religious believes up to date. Taking into consideration that weaving trade was developing with the relation of cattle-breeding and appearance of such pattern was inevitable. Together with the development of this model various believes connected with different animals arose. The shooting which was considered as the part of household activity before, later become the form of entertainment.

In the third chapter called “The patterns relating to the religious believes” mythology, archeological finds, outlooks of the Turkish people are researched. It is stressed that there is a connection of patterns with religious believes up to date as well. It turned out that the patterns on the weaving materials were formed mainly on the base of religious believes.

The result of the thesis is given in conclusion. It is concluded that the patterns on these weaving products are inherent only in the Turkish ethnic cultural environment and are a valuable source in the study of mythological ideas, everyday culture, ethnogenesis of people.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

***Севиндж Акиф кызы Насирова***

# УЗОРЫ НА ТКАЦКИХ ИЗДЕЛИЯХ КАК ЭТНОГРАФИЧЕСКИЙ ИСТОЧНИК (НА ОСНОВЕ КОЛЛЕКЦИИ НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА)

5102.01- Этнография и этнология

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ-2018**